**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ ADINA**
**MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ**

# R İ S A L Ə

## *Araşdırmalar toplusu*

# № 11

**Bakı – "Elm və Təhsil" – 2015**

***Azərbaycan Milli Elmlər Akademiyası***
***Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi***
***Elmi Şurasının 16 sentyabr 2015-ci il (protokol №7)***
***qərarı ilə nəşr edilir***

***Redaktor:*** AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru,
professor
**Rafael HÜSEYNOV**

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya elmləri doktoru, professor**
**Xatirə Bəşirli, filologiya elmləri doktoru**
**Şəfəq Əlibəyli, filologiya elmləri doktoru**
**Aida Qasımova, filologiya elmləri doktoru, professor**
**Nəzmiyyə Yigitoğlu, filologiya üzrə fəlsəfə doktoru**

**Risalə. Araşdırmalar toplusu. 11-ci cild**
**Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2015. – 232 səh.**

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi əməkdaşlarının elmi araşdırmalarından ibarət "Risalə" toplusu ildə bir dəfə nəşr edilir və məzmunu etibarilə klassik, müasir ədəbiyyat, fəlsəfə, mədəniyyət problemləri, həmçinin muzeyşünaslıq məsələlərini əhatə edir. Toplunun 11-ci cildi böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadənin 90 illiyi ilə əlaqədar muzeyin keçirdiyi respublika konfransının materialları əsasında tərtib edilmişdir. Konfransda əsas mövzu bilavasitə Bəxtiyar Vahabzadənin yaradıcılığı olsa da, müxtəlif bölmələrdə Azərbaycan ədəbiyyatının klassik və müasir dövrünə aid müxtəlif problemləri əhatə edən məruzələr də dinlənilmişdir. Redaksiya heyətinin təqdimatı və Elmi Şuranın qərarına əsasən Bəxtiyar Vahabzadəyə aid məqalələrin ən uğurluları seçilərək ayrıca bölmədə yerləşdirilmişdir. Toplunun ikinci hissəsində isə istər digər mövzular, istərsə də B.Vahabzadə yaradıcılığına aid tezislərin ən diqqətəlayiqləri dərc edilir.

Məqalələrin bir hissəsi ənənəvi olaraq muzey əməkdaşlarına məxsus olsa da, bu cildimizdə kənar elmi müəssisələrdən olan müəlliflərin də məqalələri yer almışdır.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi əməkdaşlarının, bir növ, məsul yaradıcılıq laboratoriyası olan "Risalə" mütəxəssislər, ali məktəb tələbələri, eləcə də Azərbaycan ədəbiyyatı və mədəniyyətinin problemləri ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. "Risalə" araşdırmalar toplusu Nizami muzeyinin ərsəyə gətirdiyi özünəməxsus tədqiqat topluları "Xəmsə"sinə daxil olan "Şərq" (Tərcümə toplusu), "Məclis" (Mərasimlər toplusu), "Xəzinə" (Kataloqlar toplusu), "Qaynaq" (Mənbələr toplusu) məcmuələr silsiləsindəndir və Ali Attestasiya Komissiyasının təsdiq etdiyi nəşrlər sırasında yer almaqdadır.

**© AMEA Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2015**

**Aynurə Niyaz qızı PAŞAYEVA**
**AMEA Nizami adına Ədəbiyyat İnstitutunun doktorantı**
**aynure8@mail.ru**

**Açar sözlər:** 20 Yanvar faciəsi, milli istiqlal, Cəmaləddin Əfqani, genosid
**Ключевые слова:** Трагедия 20 Января, национальная независимость, Джамаладдин Афгани, геноцид
**Key words:** The tragedy of 20 January, National independence, Jamaladdin Afgani, genocide

# BƏXTİYAR VAHABZADƏ PUBLİSİSTİKASINDA MİLLİ ÖZÜNÜDƏRK

***("Azərbaycan" jurnalının materialları əsasında)***

Mənsub olduğu xalqın ideallarını, dərdini, faciəsini, kədərini, duyğu və düşüncələrini dərindən duyan, bütün varlığı ilə ana yurduna bağlı olan şair siyasi proseslərə, faktlara ayıq, operativ münasibət bildirən, ən uca kürsülərdə – hətta Ali Sovetin sessiyalarında səsini ucaldaraq hələ ötən əsrin 50-ci illərindən qələmi ilə mübarizə aparan, milli düşüncə tariximizin ən parlaq simalarından biri olan Bəxtiyar Vahabzadə baş verən siyasi proseslərə qarşı hiddətli münasibətini 1990-cı ildə yazdığı "Şənbə gecəsinə gedən yol" məqaləsində açıq şəkildə oxucusuna çatdırır. Həqiqətən də "Şənbə gecəsinə gedən yol" əsərində şairin səsini, harayını, hönkürtüsünü duymamaq mümkünsüzdür [1, 4]. Çünki əsərdə "hissdən təfəkkürə, emosiyadan idraka keçid "prosesində" bədii fikrin genişliyi və poetik idrakın zənginliyi önəmli cəhət kimi üzə çıxır" [2, 6]. Adıçəkilən məqalə gərgin siyasi vəziyyətlərin cərəyan etdiyi şəraitdə – Dağlıq Qarabağın Azərbaycanın tabeliyindən çıxarılması, 70 il Sovet hakimiyyəti altında əzilən xalqın üsyanı, tarixdə misli görünməmiş şənbə gecəsində törədilən 20 Yanvar faciəsi və bu hadisələrin fövqündə milli mənliyi alçaldan qüvvələrə qarşı milli özünüdərk hissinin gücləndiyi bir zamanda ərsəyə gəldi. Publisist məqalədə milli özünüdərkin bütün komponentlərini – milli mənlik şüuru, milli fikir, milli bəşəri şüur, milli yaddaş, milli ruh, milli istiqlal arzusunu əks etdirməyə nail olmuşdur.

Milli özünüdərk milliliyin (qismən bəşəriliyin) sintez olunmuş qavrayışıdır. Publisistin milli özünüdərk psixologiyasının əsasında özünə kənardan baxıb qiymət vermək, milli amili dəyərləndirmək durur. Milli özünüdərk vahid milli ideyanın təsiri ilə narazı təmayüllərin, yad, barışmaz ideyaların, qlobal tendensiyaların içərisində yaranıb inkişaf edir.

B.Vahabzadənin "Şənbə gecəsinə gedən yol" məqaləsində müəllifin qabartdığı milli fikir məsələsi vətənə olan sevgi hissindən doğmurdu, onun milli ideologiyaya söykənən, vahid konsepsiyaya əsaslanan fəlsəfi görüşü idi. "Özünü dərk etmək istəyən insan, əlbəttə, öz fərdi və milli xüsusiyyətlərini də dərk etməyə çalışır. Lakin o, əvvəlcə insan ümumisini, insan varlığının səciyyəsini dərk etmək məcburiyyətindədir [3, 32]. Publisisti ən çox düşündürən xalqının illər boyu məruz qaldığı haqsızlıqların ölçü miqyası, eyni hüquqları daşıyan, amma millətlər içərisində ona qarşı qərəzli, ədalətsiz, ayrı-

seçkili münasibətdir. Xalqın milli yaddaşını səhifələyən B.Vahabzadə millətinin başına gətirilən faciənin baiskarını da konkret görürdü: "Əgər Qorbaçov məsələni birdəfəlik kəskin qoysaydı, onlar cəsarət edib bir daha Qarabağ sözünü dillərinə gətirməzdilər. Görünür, özü də bunu istəmir. Bizə çoxdan məlumdur ki, başımıza açılan bu oyunlar təkcə balaca bir xalqın, erməni lobbisinin işi deyil. Bu işlərin başında erməni mafiyasına istiqamət verən, onu güclü silahlarla təchiz edən, hətta açıq-açığına müdafiəsinə keçib hər məsələdə Azərbaycan xalqını tələyən Qorbaçov özü durur" [4, 16-17].

Milli istiqlal uğrunda mübarizə üçün tarixi şərait yetişdikdə milli özünüdərk hissi də məntiqi olaraq güclənir. Bununla bağlı liberal-islahatçıların tərəfdarı olan Cəmaləddin Əfqani ilk dəfə milli özünüdərkə üstünlük verərək yazmışdır: "Azad, müstəqil və mədəni həyat sürmək üçün bütün müsəlman xalqları milli özünüdərk şəraitində yaşamalıdır" [5, 97]. İctimai-siyasi həyatda, milli şüurun güclənməsində böyük rolu olan, həqiqətpərəstliyə sadiq, cəsarətli söz qılıncının əbədi müəllifi, publisist B.Vahabzadə məqalədə gərgin siyasi burulğanların içərisində onu ən çox düşündürən milli yaddaş, tərəqqi ilə irtica, düzlüklə yalan, cəsurluqla qorxaqlıq, yurdsevərliklə milli satqınlıq, zəka ilə nadanlıq arasında nəticə çıxarmağa çalışır. Publisistin təfəkküründəki milli özünüdərk illərdən bəri mənsub olduğu kommunist partiyasından çıxmaqla özünü qərarlaşdırır. O, tarixin ən qaranlıq qatlarına – 70 il əvvəlki hadisələrə baş vuraraq 1918-ci ildə Azərbaycanda törədilən qırğınların sahibi, vaxtilə adına heykəllər ucaltdığımız Şaumyan, onun havadarı Lalayevi lənətləyir, ermənilərin Dağlıq Qarabağ iddiaları, tarixi saxtalaşdırmaq cəhdləri, xalqımıza qarşı törədilən genosidin maraqlarını, məqsədlərini aydınlaşdırır, tutarlı arqumentlərlə böhtançı erməni siyasətini ifşa edir, bu siyasi prosesə şərait yaradan Qorbaçov və Moskvadan alqışlar qazanmaq naminə susmaq planını layiqincə yerinə yetirib, özünü qəhrəman hesab edən, doğma dilində doğru-düzgün danışmağı bacarmayan azərbaycanlı rəhbərlərin yarıtmaz fəaliyyətini tənqid etməkdən çəkinmir: "Bağırovdan tutmuş Vəzirovlara qədər hansı rəhbərin qəlbi xalq üçün ağrıyıb? Hamısı tutduğu mövqeyini düşünüb. Yuxarı dırmaşmaqdan ötrü xalqı tapdalayıblar, amma onlar bu xalqa görə rəhbər olduqlarını heç düşünməyiblər. Bu xalq olmasaydı, onları hansı xalqın başı üstünə rəhbər təyin edəcəkdilər? Rəhbərlərimizdəki bu nadanlığı, bu cəhaləti, bu eqoizmi düşündükcə adamı dəhşət götürür. Hələ mən xalqın mənəviyyatına, dilinə, mədəniyyətinə, musiqisinə etdikləri qəsdi demirəm.

Biz bu gün dizimizə döyürük ki, Moskvanın bütün mətbuat orqanlarında ermənilərin nümayəndəsi olduğu halda, bizdən bir nəfər də yoxdur. Niyə yoxdur? Çünki bizim rəhbərlərimiz ömründə bu barədə düşünməyib. Az-çox olanları isə burada törətdiyi fırıldaqlar orada açılmasın deyə ya vəzifəyə gətirib burada başını əziblər, ya da buradan ora barmaq uzadıb işdən qovdurublar" [6, 14].

Publisistin aşıladığı milli ruh emosional ifadələrlə oxucuda tarixi prosesə, siyasi hadisələrə qarşı fikir nəticəsi formalaşdırır, analitik təhlili polemik keyfiyyətlərlə zənginləşdirir.

B.Vahabzadə əsər boyu xalqına doğru yönələn tarixin səhnə ekranından üsyankar hiddətini, cavabını bədii suallarla kütləyə aydınlaşdırmağa çalışır: "Yüz əlli ilə yaxın bir müddətdə torpağımızdan sorub apardığı qızıl neftlə bərabər qızıl qanımızı da tökdülər. Nə idi çiçəyi burnunda ölən

yeniyetmələrimizin, torpağımızın bütövlüyünü qorumaq istəyən cavanlarımızın, qız-gəlinlərimizin günahı? Vətən torpağını sevmək, onu qorumaq istəmək haçandan günah hesab olunmuşdur? 40-45 il bundan əvvəl indi sizin əlinizlə şəhid düşən bu gənclərin ata-babaları məgər rus torpağı yolunda öz canlarından keçməmişdimi? Ata-babaların o zaman sizə göstərdiyi o xidmətin, fədakarlığın cavabını beləmi qaytararlar, ey nankorlar? 200 ildir mən sənin qulun oldum, nökərin oldum, gün çıxandan gün batana qədər mən sənin üçün əlləşdim, sənə canım və qanım bahasına neft verdim, pambıq verdim, taxıl verdim, özüm becərdiyim məhsulu özüm sənə göndərdim. Sən mənim hesabıma dünyanın ən qüdrətli dövləti oldun, dünyaya meydan oxudun, ölkələrə hədə-qorxu gəldin, indi bu idi mənim yaxşılıqlarımın əvəzi? Biz bu sitəmi götürdük, Allah götürməsin!" [4, 11-12].

"Bu suallar isə xalqının, bəşəriyyətin, dünyanın dərdləri ilə yaşayan sənətkarın fəlsəfi düşüncələrinin, narahat duyğularının əks-sədasıdır" [1, 22]. B.Vahabzadə milli özünüdərkin əsasında dayanan faktların mahiyyəti, özünəməxsus keyfiyyətləri, çevrəsi və analogiyaları bədii suallarla açır, dəyərləndirir. Təhlil etdiyi hadisə və faktın gerçəkliyə uyğunluğunu aydınlaşdırır. Bəzən təhlil dərinləşdikcə faktın ümumiləşdirmə miqyası da böyüyür.

Milli oyanışımızda, milli dirçəlişin xalq ruhuna yol tapmasında, "insanlardakı buz bağlamış vicdanların" donunu açmaqda, yatmış ruhlarda itib-batmış milli qeyrətin tapılmasında, soydaşlarımıza xalqın keçmişini, kökünü anlatmaqda" böyük rolu olan B.Vahabzadənin genosidə qarşı fəal publisistik kəsəri və prinsipial vətəndaşlıq mövqeyi məqalədə aydın bir şəkildə görünməkdədir.

Öz xalqının tarixi faciəsini bədii sənət müstəvisində böyük cəsarətlə canlandıran şair ilk dəfə olaraq ədəbiyyatımızda milli düşüncənin, milli özünüdərkin təməlini qoydu. B.Vahabzadənin milli özünüdərkin fövqündə həqiqətə sədaqəti o qədər qüvvətlidir ki, bəzən baş verən siyasi proseslərdə öz xalqını qəflət yuxusunda sakit qərar tuduğuna görə məzəmmətləyir. Ümumiyyətlə, "Şənbə gecəsinə gedən yol" məqaləsində milli ruhlu publisistika ilə analitik alim təfəkkürlü zərif bir şairin ürəyinin sızıltılarını duymamaq qeyri-mümkündür. Amma əsərin sonunda müəllifin xalqın işıqlı gələcəyinə olan böyük inamı diqqəti cəlb edir. Ancaq emosiya ilə məntiqin sərhədinin çətin müəyyənləşdiyi "Şənbə gecəsinə gedən yol" məqaləsində publisistdə qanlı faciənin törədildiyi şənbə gecəsindən sonra millətinin bu ağır baryerlər qarşısında qələbəsinə qarşı əminliklə inanır: "Mən bir daha inandım ki, bu xalqı qırmaq olar, əzmək olar, amma sındırmaq olmaz" [4, 20]. Dərin mətləb və yüksək vətəndaşlıq qeyrəti ilə yazılmış əsərin əsas ideyası, başlıca qayəsi xalqı həqiqi birliyə, möhkəm özünəinama, dərin ağıl və əməl mübarizəsinə çağırmaq, bötövlükdə milləti səfərbər olmağa səsləməkdir.

Bəxtiyar Vahabzadə qarşı düşmən tərəfin tarixini, keçmiş mənfur siyasətini anlayacaq qədər ayıq düşüncə sahibi idi. Onun genosid yaddaşı ötəri, keçici deyil, bu yaddaş özündə milliliyi və həqiqəti əks edən bədii ruhu, mənəvi özünəməxsusluğu yaşadır. Genosidə qarşı nifrətli emosiyalarla çıxış edən publisist bütün diletant yanaşmalar, böhtanlar içərisində ictimai mexanizm xəstəliyinə tutulan ermənilərə qarşı millətin yeganə çıxış yolunu gedəcəyi yolda qibləsini düzgün təyin etməkdə, Azərbaycan xalqının milli

istiqlal mübarizəsinin mənəvi-ideoloji hazırlıq mərhələsində görürdü. B.Vahabzadə 1988-ci ildən bu yana azərbaycanlılara qarşı törətdikləri müsibətlərin üstündən xətt çəkib ədalətin xilafına çıxaraq bizi "vəhşi", "mədəniyyətsiz" millət adlandırıb özlərini "əzilən xalq" kimi qələmə verən ermənilərə qarşı sonsuz qəzəbini bu əsərində açıq şəkildə, böyük cəsarətlə bildirdi.

Vətəndaş duyğusu şairin hər bir misrasında poetik enerji kimi təzahür edir. Sözsüz ki, B.Vahabzadənin publisistikası vətəndaş qayəli, vətəndaş siqlətli publisistikadır. Bu publisistika özündə böyük ictimai kolliziyaları, lirik qəhrəmanın mənəvi aləmi ilə onu əhatə edən dünyanın problemləri arasındakı uyğunsuzluğun inikası olan konfliktləri əhatə etməkdə səciyyəvidir. Bu baxımdan B.Vahabzadənin publisistikasında milli düşüncə, milli azadlıq problemləri, ana dilinə münasibət və məsələlər aparıcıdır.

Əsərdə ziddiyyətli gərgin siyasi proseslərin dinamikası yazıçı qələminin mübarizəsini daha da aktivləşdirir. Müəllif hər bir tendensiyanın dixotomiyasını dəqiq müəyyən edib, ölçüb-biçmişdi. Beləliklə, milli özünüdərk prosesini dərindən duyan, milli şüurun oyanışına çağıran, qan yaddaşının bərpasına çalışan B.Vahabzadə məqalədə ictimaiyyətə çatdırmağa çalışdığı milli fikirlə, aşıladığı mübarizə ruhu ilə xalqın gözündən qəflət pərdəsini götürməyə cəhd göstərmiş, dövrün siyasi mənzərəsinin görünməyən həqiqətlərini cəsarətlə oxucusuna ürək ağrısı ilə çatdırmağa çalışmışdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Gündoğdu Bayram. Bəxtiyar Vahabzadənin publisistikası. Avtoreferat, Bakı, 2010.
2. Allahverdiyev Vaqif. Bəxtiyar Vahabzadə yaradıcılığında milli özünüdərkin bədii-fəlsəfi ifadəsi. Bakı: Yazıçı, 2011.
3. Xəlilov Səlahəddin. Fəlsəfə: tarix və müasirlik. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı, 2006.
4. Vahabzadə Bəxtiyar. Şənbə gecəsinə gedən yol. "Azərbaycan" jurnalı, Bakı, 1990, №10, s.3-20.
5. Rəsulzadə M.Ə. Panturanizm haqqında. "Azərbaycan" jurnalı, 1991, № 6, s.97-126.
6. Vahabzadə Bəxtiyar. Şənbə gecəsinə gedən yol. "Azərbaycan" jurnalı, Bakı, 1990, №9, s.7-27.

***Aynura Niyaz gizi Pashayeva***

**National self-understanding in Bakhtiyar Vahabzade's publicism**
***(On the basis of literary review "Azerbaijan")***
**S u m m a r y**

Bakhtiyar Vahabzade – one of the most splended personalities of national conception expressed his outrage at current political process of 1990 year in the article. "The road to Saturday night". The publicist tried to reflect all components of national self-understanding – national dignity consciousness, national idea, national human consciousness, national memory, national spirit, national independence wish.

***Айнура Нияз гызы Пашаева***

**Национальное самосознание в публицистике Бахтияра Вагабзаде**
***(На основе материалов журнала «Азербайджан»)***
**Р е з ю м е**

Одно из самых выдающихся фигур в истории мысли, Бахтияр Вагабзаде, в статье «Дорога, ведущая к субботнему вечеру» выразил свое возмущение по поводу политических процессов 1990 года. Публицист в статье пытается отразить все компоненты национального самосознания – национальный сознатель, национальное мнение, национальное человеческое сознание, национальная память, национальный дух, стремление к национальной независимости.

## KİTABIN İÇİNDƏKİLƏR

Rafael HÜSEYNOV. Bəxtiyar Vahabzadənin arzuladığı bəxtiyar gələcək.....4

## BÖLMƏLƏR:

### BÖLMƏ 1: BƏXTİYAR VAHABZADƏ VƏ AZƏRBAYCAN ƏDƏBİYYATINDA VƏTƏNPƏRVƏRLİK MÖVZUSU
### BÖLMƏ 2: BƏXTİYAR VAHABZADƏ VƏ AZƏRBAYCAN DRAMATURGİYASINDA TARİXİLİK

## MƏQALƏLƏR

Kamil ŞƏRİFOV. Süleyman əl-İsanın yaradıcılığının Azərbaycan poeziyası ilə uzlaşan məqamları.....31
Aynurə PAŞAYEVA. Bəxtiyar Vahabzadə publisistikasında milli özünüdərk.....38
Bayram GÜNDOĞDU. Türk dünyasının şairi Bəxtiyar Vahabzadə..... 43
Dilarə ƏLİYEVA. Bəxtiyar Vahabzadə və Azərbaycan dramaturgiyasında tarixilik.....49
Sakibə ƏLƏSGƏROVA. Azadlıq və istiqlal şairləri: Bəxtiyar Vahabzadə və Sönməz .....53
Gülşən MEHDİZADƏ. İbtidai siniflərdə milli vətənpərvərlik hissinin aşılanması .....59
Yeganə HÜSEYNOVA. Bəxtiyar Vahabzadə poemalarında sosial mühitin təsviri ..... 64
Reyhan MƏCİDOVA. Poeziyamızın günəşi öz misralarında.....70
Aida MİRZƏYEVA. Bəxtiyar Vahabzadənin poetik yaradıcılığında vətən sevgisinin tərənnümü .....76
Natavan MUSTAFAYEVA. Bəxtiyar Vahabzadə yaradıcılığında türkçülük.. 81
Nəzmiyyə YİGİTOĞLU. Azərbaycan poeziyasındakı “altmışıncılar” nəslində dissident düşüncə – Bəxtiyar Vahabzadədən Vaqif Səmədoğluyadək .....86
Türkan QƏDİROVA. Bəxtiyar Vahabzadə poeziyasında ana dilinə münasibət .....92
Roza EYVAZOVA. Bəxtiyar Vahabzadə yaradıcılığına bir baxış .....97
Tomiris BABANLI. Bəxtiyar Vahabzadə poeziyası ingilis tərcümələrində ..102
Тойраханум ГУСЕЙНОВА. Национальное и общечеловеческое в поэзии Бахтияра Вагабзаде .....109
Nuranə ƏSƏDULLAYEVA. Bəxtiyar Vahabzadə poeziyasında ədəbiyyat və sənət məsələləri .....113